# AZƏRBAYCAN XALQININ SÖNMƏZ GÜNƏŞİ- HEYDƏR ƏLİYEV

**Türkan Hüsən qızı Hüseynova**
***BDU-nun Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə I kurs, 136-cı qrup tələbəsi***

O qaytardı bizə şanlı zəfəri
Üçrəngli bu bayraq ucaldı yenə
Bir böyük Xalqı, şanlı Milləti
O qovuşdurdu müstəqilliyə

Sevgisini, qəlbini verdi bizlərə
Gəzdi məhəbbəti O qarış-qarış
Bir " Günəş" gəldi köməyimizə
Əsir bir Xalq da azad olarmış

Bu "Günəş" nə yaxşı parladı belə
Şölə odu qəlbimizə saçardı
Azadlığın can verdiyi bir yolda
O bizi Azadlığa apardı

O "Günəş" ki, gecələr də parladı
Yetişdi O, xalqın ah-amanına
Gələcəyə nur, işıq saldı
Azadlıq gətirdi öz torpağına

Kimdir O "Günəş" deyə düşündüm yenə
Bir fərəh, şan-şöhrət coşdu içimdən
Qəlbimdən bir sevgi süzüldü dilə
"Ulu Öndər" kəliməsi qopdu dilimdən

Gözlərdə bu sevgi coşdu, qaynadı
Ulu Öndər kəliməsi düşdü dillərə
Bizi O bizə geri qaytardı
Köləykən qalib gəldik biz köləliyə

Ulu Öndər deyə hayqıran dəniz
Durmadan hey çırpınır sahilə
Birləşərək bir bayraq altında biz
Qalib gəldik bu zülmətə səninlə

Ötürdük dərdi, ötürdük qəmi
Əzdik, kimsə bizə qarşı gələndə
Sevinc göz yaşları yudu kədəri
Üçrəng bayraq kölgəsi yerə düşəndə

Güc oldun qüvvət oldun qollarımıza
Özün yoxkən qəlbimizdə yaşadın
Çatdırdın sən bizi amalımıza
Azadlığı əməlində daşıdın

Azadlığa səs verdi bu Xalq səninlə
Biz sənə verilən bir əmanətik
İrəlilədik biz qürurla, şərəflə
“Heydər” deyə hayqıran bir Millətik

Ey Ulu Öndər, ey Ulu Heydər
Bu Millət səninlə hey ucalacaq
Altında yatdığın bu torpaq səni
Əsrlər ötsə də unutmayacaq

Görərsən gələcəyə bir nəzər salsan
Bu torpaq yenə də güllər açacaq
Bu Vətən, bu diyar-Azərbaycan
Dünyaya Günəş kimi yenidən doğacaq!